# ABTM haqqında

**Azərbaycan Bank Tədris Mərkəzi**

Süleyman Rəhimov küç, 309-cu məh.

Bakı, AZ-1009, Azərbaycan

Tel: (+99412) 4970710 / 11 / 12

Faks: (+99412) 5973054

Elektron poçt: office@abtc.az

İnternet səhifəsi: www.abtc.az

## Tarixi

Azərbaycan Bank Tədris Mərkəzi Azərbaycan Banklar Assosiasiyasının törəmə müəssisəsi kimi, 2000-ci ilin fevral ayında Avropa Birliyinin TACİS proqramının texniki yardımı ilə yaradılmışdır.

ABTM bu gün bank işi və biznesin idarə edilməsi üzrə Azərbaycanın ən böyük təlim və məsləhət xidməti təşkilatıdır.

## Vizion və Missiya

ABTM-nin vizionu onu Azərbaycanın maliyyə xidmətləri sektoruna bütün növ, qeyri-maliyyə xidmətləri sektoruna isə yalnız idarəetmə sahəsində təlim və məsləhət xidmətləri göstərən, maliyyə sektoru üçün peşəkar mütəxəssislər hazırlayan, habelə yerli və beynəlxalq sertifikasiya proqramları tətbiq edən aparıcı biznes xidmətləri institutu etməkdir.

ABTM-nin missiyası onun maliyyə xidmətləri və biznesin idarə edilməsi üzrə müasir bilik və texnologiyaları Azərbaycana gətirib, yerli şəraitə uyğunlaşdırmaqla, onlara əlavə dəyər verən, praktikyönümlü edən və beynəlxalq standartlara uyğun formada biznes tərəfdaşlarına çatdıran peşəkar təlim və məsləhət xidmətləri institutu kimi fəaliyyətini qurmaqdır.

## ABTM-nin komandası

ABTM-nin daimi ştatda çalışan 13 əməkdaşı, 70-dən artıq ştatdankənar eksperti vardır.

ABTM-nin ekspertləri Azərbaycan Mərkəzi Bankı və onun infrastrukturlarında, banklarda və şirkətlərdə çalışan menecer və aparıcı mütəxəssislərdirlər ki, onlar da əksəriyyəti ABŞ, Avropa Birliyi və Yaponiya ekspertləri tərəfindən hazırlanmış və o ölkələrdə təcrübə mübadiləsində olmuşlar.

## ABTM-nin Təlim Xidmətləri

Bu gün ABTM 140-dan artıq təlim məhsulu vardır və 300-dən yuxarı təşkilat onun xidmətlərindən istifadə edir.

Təlim məhsulları əsasən 2 qrupa bölünür:

- **Uzunmüddətli sertifikasiya proqramları (150 saatadək):**
  1. Sertifikatlaşmış Praktik Mühasib – CAP (Certified Accountant Practitioner)
  2. Maliyyə Riski Meneceri-1 (FRM-Financial Risk Menecer)
  3. İnsan Resursları Meneceri (HRM)
  4. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (İFRS)
  5. Ümumi Bank İşi
  6. Bank işində risklərin əsasları
  7. Bankın Filial Meneceri
  8. Bank Filialının Baş Mühasibi
  9. İpoteka Krediti Mütəxəssisi
  10. İpoteka Krediti Meneceri
  11. Kredit Mütəxəssisi
  12. Bankın Müştəri Xidməti Mütəxəssisi
- **Qısamüddətli standart kurslar üzrə mövzu qrupları (30 saatadək):**
  1. İdarəetmə (35 mövzudan çox)
  2. Maliyyə (15 mövzudan çox)
  3. Kredit (15 mövzudan çox)
  4. İT və MİS (15 mövzudan çox)
  5. Marketinq və satış (25 mövzudan çox)
  6. Yumşaq vərdişlər (10 mövzudan çox)
  7. Digər mövzular (20 mövzudan çox)
- **ABTM-nin tədris xidmətləri üzrə üstünlükləri**
  - Qabaqcıl təcrübəyə yönlənmə
  - Kiçik qruplar
  - Dialoq formalı müzakirə
  - Praktik biznes hallar
  - Biznes oyunlar
  - Kompüterdə simulyasiya proqramları
  - Hər bir kursun ən azı 30%-i praktiki oyun və tapşırıqlar

■ **Statistika**

| İllər | 2000 | 2001 | 2002 | 2003 | 004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kursların sayı | 41 | 57 | 91 | 127 | 127 | 190 | 127 | 110 | 116 | 184 | 129 | 141 | **1440** |
| İştirakçı sayı | 601 | 887 | 1208 | 1353 | 1539 | 2337 | 1610 | 1592 | 1847 | 2636 | 1628 | 1735 | **18973** |

## ABTM-nin Məsləhət Xidmətləri

2001-ci ildən başlayaraq, ABTM bank işi və biznesin idarə edilməsi üzrə məsləhət xidmətləri göstərməkdədir. Bu günədək ABTM 25 təşkilata 168 layihə çərçivəsində məsləhət xidmətləri göstərmişdir.

■ **ABTM-nin əsas məsləhət xidməti məhsulları**:

1. Korporativ İdarəetmə
2. Strateji İnkişaf
3. Təşkilati struktur
4. İnsan resurslarının idarə edilməsi
5. Maliyyə Menecmenti
6. İnformasiya Texnologiyaları
7. Kredit biznesinin təşkili
8. Biznes proseslərin təşkili
9. Daxili Audit
10. Marketinq və satış
11. Risk Menecmenti
12. Aktiv və passivlərin idarə edilməsi
13. Bilik və vərdişlərin test vasitəsi ilə yoxlanılması.
14. İdarəetmə üzrə digər xüsusi sifarişli məsləhətlər

■ **ABTM-nin məsləhət xidmətləri üzrə üstünlükləri**

- Mütərəqqi beynəlxalq təcrübənin yerli şəraitə uyğunlaşdırılması
- Yerli şərait və qanunvericilik haqqında dərin biliklər
- Məsləhət xidmətlərinin seminar, təlimat və proqramlarla müşayiət olunması
- Tərəfdaşların istədikləri vaxta və məkanda xidmətimizi təklif edə bilmək bacarığı
- Tətbiqi monitorinq etmə
- Xidmətləri müşayiətetmə

■ **01 yanvar 2012-ci il vəziyyətinə statistika**

| ## | **Sahə** | **Say** |
|---|---|---|
| 1. | Mövcud işçilərin testdən keçirilməsi | **29** |
| 2. | Strateji Planlaşma | **22** |
| 3. | Təşkilati strukturun və proseslərin təkmilləşdirilməsi | **20** |
| 4. | İnsan resurslarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi | **21** |
| 5. | Maliyyə menecme ti sistem n n təkmilləşdirilməsi | **12** |
| 6. | İT işinin təkmilləşdirilməsi | **9** |
| 7. | İntranet quraşdırılması | **8** |
| 8. | İşəqəbul üçün müraciət etmiş namizədlərin testdən keçirilməsi | **8** |
| 9. | Marketinq və satış | **8** |
| 10. | Risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi | **7** |
| 11. | Audit işinin təkmilləşdirilməsi | **4** |
| 12. | Aktiv və passivlərin idarə edilməsi işinin təkmilləşdirilməsi | **3** |
| 13. | Kredit işinin təkmilləşdirilməsi | **3** |
| 14. | Menecment Məlumat Sistemi | **3** |
| 15. | Test sisteminin və bazasının yaradılması | **3** |
| 16. | Digər xüsusi məsləhət xidmətləri | **8** |
| | **Cəmi** | **168** |

## Beynəlxalq əməkdaşlıq

Yarandığı gündən bu günədək ABTM beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən 30 layihəyə cəlb olunmuş, onlardan 9-da benefisiar, 21-də isə məsləhətçi olmuşdur.

**ABTM-nin benefisiar olduğu layihələr**

1. Avropa Birliyinin TACIS Proqramı (ABTM-nin yaradılması)
2. ABŞ-in Vətəndaş Çəmiyyəti (Treynerlər üçün təlim)
3. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (Təlimçilər üçün təlim)
4. Almaniyanın InWent təşkilatı (2003- Təlimçilər üçün təlim)
5. Almaniyanın InWent təşkilatı (2004- Təlimçilər üçün təlim)
6. Canada Beynəlxalq Əməkdaşlıq Təşkilatı, Kanada (Təlimçilər üçün təlim)
7. Beynəlxalq Maliyyə Korporasiyası və BP Azərbaycan Neft Şirkəti (KOM üçün Biznes xidmətləri yaradılması)
8. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOM üçün Biznes xidmətləri yaradılması)
9. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (ABTM-nin İnstitusional İnkişafı)

**ABTM-nin icraçı olduğu layihələr**

10. Avrasiya Fondu (Cənubi Qafqazda Peşəkar Bank Təlimi)
11. Almaniya Texniki Yardım Agentliyi (Pərakəndə Bank işi üzrə məsləhət xidmətləri)
12. Almaniya İnkişaf Bankı (Korporativ idarəetmə üzrə məsləhət xidmətləri)
13. Almaniya İnkişaf Bankı (Alman-Azərbaycan Fondunun idarə edilməsi üzrə məsləhət xidmətləri)
14. Almaniya İnkişaf Bankı (Pərakəndə Bank işi üzrə məsləhət xidmətləri)
15. Avrasiya Fondu və Almaniya Texniki Yardım Agentliyi (Azərbaycan və Gürcüstan Banklar Assosiasiyalarının institusional İnkişafı üzrə məsləhət xidmətləri)
16. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (AMB-də kompensasiya sistemlərinin yaxşılaşması üzrə məsləhət xidmətləri)
17. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (Neft Fondunda kompensasiya sistemlərinin yaxşılaşması üzrə məsləhət xidmətləri)
18. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (Dövlət İnvestisiya Siyasəti və Səmərəlilik üzrə məsləhət xidmətləri)
19. Avropa Yenidənqurma və İnkişaf Bankı (CredAgroda aktiv və passivlərin idarə edilməsi üzrə məsləhət xidmətləri)
20. Beynəlxalq Maliyyə Korporasiyası (Rabitəbankda Strateji Planlaşma üzrə məsləhət xidmətləri)
21. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (Azərbaycan İnvestisiya Şirkətində insan

resurslarının idarə edilməsi sistemlərinin yaxşılaşdırılması)

22. İslam İnkişaf Bankı (Təhlil və Yeni açılacaq lizinq şirkətinin biznes planın hazırlanması)
23. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (Azərbaycan Mərkəzi Bankında kompüterləşmiş test sisteminin yaradılması üzrə məsləhət xidmətləri)
24. Dünya Bankı (Azəripoçt DM-si işçilərinə poçt-maliyyə xidmətləri üzrə təlim layihəsi)
25. Avropa Yenidənqurma və İnkişaf Bankı (KOS-a böhran şəraitində biznesin optimallaşdırın – marketinq və satış vərdişləri mövzusunda təlim xidmətləri)
26. Almaniya İnkişaf Bankı (Kredit Zəmanət Fondu üzrə məsləhət xidmətləri)
27. Avropa Yenidənqurma və İnkişaf Bankı (Bakı Fond Birjasının strateji plan və risklərin idarə edilməsi məsləhət xidmətləri)
28. Avropa Birliyi (Azərbaycan İnvestisiya Şirkətinin monitorinq şöbəsinin işinin təkmilləşdirilməsi üzrə məsləhət xidmətləri)
29. Dünya Bankı (Kənd təsərrüfatının inkişafı və kredit layihəsi çərçivəsində təlim xidmətləri)
30. Dünya Bankı (Dövlət təşkilatlarının nümayəndələri üçün "Statistik təhlil" üzrə təlim xidmətləri)

## Üzvlük

ABTM aşağıdakı yerli və beynəlxalq təşkilatların üzvüdür:

- Avropa Bank Tədris Şəbəkəsinin assosiativ üzvü (EBTN)
- Avropa Yaşlıların təhsili Assosiasiyasının tam üzvü (EAEA)
- Azərbaycan Sahibkarlar Konfederasiyasının tam üzvü.